*Yubiley*



# Şərəf və ləyaqətlə

*Onun həyat və fəaliyyətini xarakterizə etmək üçün başqa söz axtarmağa ehtiyac yoxdur. Başlığa çıxardığımız bu iki ifadə yetərlidir. Ömrün 70-ci pilləsində qərar tutan Bəşir müəllim taleyin ona bəxş etdiyi həyatı ləyaqətlə yaşayır, tutduğu vəzifədə xalqına namusla xidmət edir. Təsadüfi deyildir ki, el yanında üzü bu qədər ağ, oba içərisində alnı bu dərəcədə açıqdır.*

**H**əsənov Bəşir Paşa oğlu 1937-ci il aprelin 21-də anadan olub. Azərbaycan Dövlət Universitetini bitirib. 45 ildir ki, mədəniyyət sistemində çalışır. 1965-ci ildən Tovuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin özündə birləşdiyrdiyi 137 mədəni-maarif müəssisəsinin (13 mədəniyyət evi, 39 klub, 78 kitabxana, 1 xalq teatrı, 2 muzey, 1 rəsm qalereyası və 3 musiqi məktəbi) əksəriyyəti məhz Bəşir müəllimin təşəbbüsü və bilavasitə iştiakı ilə yaradılmış, inkişaf etmişdir. Bu müəssisələrdə minlərlə müxtəlif tədbirlər həyata keçirilmiş, istedadlar aşkara çıxarılmış, baxış-müsabiqələr təşkil olunmuşdur.

Hər görüşümüzdə Bəşir müəllimin neçə gözəl xüsusiyyəti açılıb – bacarıqlı mütəxəssis, yaxşı qonşu, sadiq dost, mehriban həmsöhbət, qayğıkeş ailə başçısı kimi. Elin xeyir-şərindən qalmır, sözü bütövdür, vədi ilə əməli arasında fərq görməzsən. Mehribandır, təvazökardr, zəhmətkeşdir. Çox-çox şöbə müdirlərindən fərqli olaraq o, həm Mədəniyyət və Turizm Nazirliyində, həm Rayon İcra Hakimiyyətində, həm eldə-obada, həm də onu tanıyanlar arasında xüsusi nüfuza malikdir. Bunların kökündə uzun illərin zəhməti, kökdən gəlmə gözəl tərbiyə, ağsaqqal məsləhəti durur. Onu başqalarından soruşmağa lüzum yoxdur. Elə gendən seyr etmək kifayətdir ki, görəsən nə qədər hörmət-izzəti var.

Sənətinə məhəbbəti, vəzifəsinə məsuliyyəti ilə fərqlənir. Qonşu bölgələrdə də ona ehtiram göstərən, yolunu tutan, təcrübəli mədəniyyət işçisi kimi ondan öyrənənlər çoxdur. Adı həmişə qabaqçıllar sırasında çəkilir.

Hərtərəfli dünyagörüşə malik savadlı ziyalıdır.

...Bu məqalə işıq üzü görəndə çox güman ki, təqaüdə çıxdığından Tovuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri kreslosunda artıq Bəşir müəllim deyil, başqası əyləşmtiş olaçaq. Əslində burada qəribə bir şey yoxdur. Əzəldən həyatın qanunu belədir. Ömür müvəqqətidirsə vəzifə daimi olmaz ki ?!

Digər tərəfdən, yerlərdə aparılan gəncləşmə siyasəti respublikamızın başqa bölgələri kimi Tovuzdan da yan keçməməlidir. Bəşir müəllim təcrübəli mütəxəssis kimi yaxşı bilir ki, mədəniyyət dedikdə hər şeydən əvvəl yenilik, müasirlik, gözəllik, tərəqqi və s. anlayışlar yada düşür. İndi müstəqil respublikamız yeni bir həyat tərzi yaşayır. Mədəniyyət sistemində də mütləq geniş islahatların aparılması, struktur dəyişikliyinin həyata keçirilməsi, yeni idarəçilik formalarının yaradılması və tətbiqi bir zə-

ruriyyət kimi ortaya çıxır.

Təəssüf doğuran odur ki, bütün mənalı ömrünü inkişafı və təbliği yolunda səxavətlə xərclədiyi mədəniyyətdən – ehtimadı ləyaqətlə doğruldaraq uzun illər şərəf və namusla xidmət etdiyi, ürəkdən sevdiyi, bir yazıçı, şair kimi özünə ləqəb seçdiyi sənətdən Mədəniyyət Bəşir öz lazımi qiymətini almadan – Respublikanın Əməkdar Mədəniyyət işçisi adına layiq görülmədən gedir...

Vəzifə kürsüsündə Bəşir müəllimi kim əvəz edəcək: qadınmı, kişimi, gəncmi, orta yaşlımı?! Bunun fərqi yoxdur. Arzumuz odur ki, o da Bəşir Həsənov kimi xeyirxah, mehriban, qayğıkeş, məsuliyyətli, sadiq, pak, sözü bütöv, əməli saleh olsun. Onda onun da el arasında xüsusi nüfuzu, oba içərisində hörməti olacaq. Beləcə estafet yaxşıdan yaxşıya keçəcək...

...Ayrılıq həmişə kədər doğurur. Bir anlığa fikirləşəndə ki, illərdən bəri üz-gözünə öyrəşdiyimiz, duzlu-məzəli söhbətləri ilə kefimizi durultduğumuz, müdrik məsləhətlərindən bəhrələndiyimiz Bəşir müəllimlə daha mədəniyyət şöbəsində görüşməyəcəyik – əhvalımız qarışır.

Burada yenə də öz sözü köməyimizə gəlir: «Mən vəzifədən gedirəm, adamlıqdan da getmirəm ki ...»

Hər vaxt olduğu tək yenə də haqlısınız, Bəşir müəllim! Sizinlə bundan sonra hələ çox görüşəcəyik. Təcrübəli mədəniyyət xadimi kimi, müdrik ağsaqqal kimi, gözəl şair kimi, qayğıkeş ata, sadiq ər, mehriban baba kimi.

Düşünürük ki, bir görüşümüz də yaxın vaxtlarda oxucuların diqqətinə verəcəyiniz kitabınızla bağlı olacaq...

Y.Araplı